# Baş prokuror Gəncə qurbanlarının xatirəsini anıb

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Gəncə terrorunun ildönümü ilə bağlı şəhərdə səfərdə olub, həlak olan dinc sakinlərin xatirəsini anıb.**



Baş prokuror jurnalistləirə açıqlamasında bildirib ki, Gəncə terroru Vətən müharibəsində məğlub olan Ermənistanın acizliyini göstərdi: “Gəncəyə raket hücumları ilə bağlı 3 cinayət işi başlanıb, həmin tapşırığı verənlər və icra edənlər müəyyən olunublar. Ermənistan tərəfindən döyüşən muzdluların tutularaq Azərbaycana ekstradisiya edilməsində müəyyən problemlər olsa da, biz buna nail olacağıq”.

Kamran Əliyev daha sonra qeyd edib ki, biz hətta Xocalı dövründən olan cinayətkarları İkinci Qarabağ müharibəsindən sonra tutub məsuliyyətə cəlb etmişik: “Başladığımız bu cinayət işlərindən beynəlxalq ədalət məhkəməsində, beynəlxalq instansiyalarda istifadə edirik. Əldə olunan sübutlarla biz Ermənistanın dövlət kimi siyasətinin beynəlxalq hüquq normalarına zidd olduğunu da sübut edirik, bu da çox vacibdir”.

**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 13 oktyabr.- S.5.